**A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**S Ə R Ə N C A M I**

№ 72 "09" 03 2018-ci il

**15-18 mart 2018-ci il tarixlərdə Binəqədi rayon orta ümumtəhsil məktəblərinin bir qrup şagirdinin "Ölkəmizi tanıyaq" tur-aksiyada iştirakları haqqında**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən "Ölkəmizi tanıyaq" devizi ilə yeniyetmələrin Naxçıvan Muxtar Respublikası ilə tanışlığı üçün təşkil olunmuş maarifləndirici tur-aksiya çərçivəsində Binəqədi rayonundan olan məktəblilərin də iştiraklarının təmin edilməsi məqsədilə və "Yerli İcra Hakimiyyətləri haqqında" Əsasnamənin 4.13.15-ci bəndini rəhbər tutaraq

**Q ə r a r a a l ı r a m:**

1. Binəqədi rayonunda yerləşən orta ümumtəhsil məktəblərindən "Ölkəmizi tanıyaq" adı altında təşkil olunacaq tur-aksiyada 27 nəfər olmaqla IX-XI siniflərin nümunəvi şagirdlərindən ibarət qrupun və 3 nəfər müşayiətçilərin siyahısı təsdiq olunsun (siyahı əlavə olunur).
2. "Ölkəmizi tanıyaq" adı altında Binəqədi rayonundan IX-XI sinif şagirdləri üçün Naxçıvan Muxtar Respublikasına təşkil olunacaq tur-aksiya ilə əlaqədar olaraq, Binəqədi Rayon İcra Hakimiyyətinin nəzdində aşağıdakı tərkibdə Qərargah yaradılsın:

**Qərargahın sədri:**

- **Aygün Əliyeva** — Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini

**Qərargahın üzvləri**

- **Elman Dadaşov** — Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri
- **Elvin Aslanov** — Binəqədi rayon Gənclər və İdman İdarəsinin rəisi
- **Aslan Mehdiyev** — Binəqədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri

- **Solmaz Kazımova** — 299 nömrəli məktəb-liseyin direktoru
- **Jalə Pənahi** — 21 nömrəli uşaq poliklinikasının baş həkimi

3. Qərargaha tapşırılsın ki, keçirilən tur-aksiya çərçivəsində təşkilati məsələləri həll etsin və tur-aksiyanın keçirilmə müddətində Binəqədi Rayon İcra Hakimiyyətinin başçısına mütəmadi olaraq məlumat versin.
4. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyevaya həvalə edilsin.

**Xaləddin İsgəndərov**

**№ ____**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** — **Elnur İmanov**